

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 131 (23.773)

*23 iyul 2021-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə iyulun 20-də Rusiyada işgüzar səfərdə olub. Prezident İlham Əliyev ilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında görüş olub. Rusiya Prezidenti Vladimir Putin regionda vəziyyətin nizamlanmasına çox böyük diqqət və əhəmiyyət verdiyinə görə dövlətimizin başçısına təşəkkür edib.

Azərbaycan Prezidenti İlham Əliyev ikitərəfli əməkdaşlıq nəticəsində əmtəə dövriyyəsinin artmasından, nəqliyyat-tranzit, təhsil və digər sahələrdə əməkdaşlığın fəal surətdə genişləndirilməsindən danışıb, regionda münaqişədən sonrakı vəziyyətlə bağlı məsələlərin həllində şəxsən iştirakına görə Rusiyanın dövlət başçısına təşəkkürünü bildirib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də qərb bölgəsinə səfər edib. Dövlətimizin başçısı Daşkəsən şəhərində ulu öndər Heydər Əliyevin abidəsini, Şəhidlər xiyabanını ziyarət edib, "AzerGold" QSC-nin "Çovdar" İnteqrəolunmuş Regional Emal Sahəsinin fəaliyyəti, "Daşkəsən şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi üzrə görülən işlər ilə tanış olub.

Prezident İlham Əliyev səfər çərçivəsində Naftalan şəhərində də olub, xalqımızın ulu öndəri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib. Dövlətimizin başçısı Naftalan şəhər hava limanı ilə tanış olub, Naftalan Mərkəzi Sanatoriyasının açılış mərasimində, Naftalan şəhərində 200 yerlik körpələr evi-uşaq bağçasının istifadəyə verilməsi ilə bağlı tədbirdə iştirak edib.

Dövlətimizin başçısı Goranboy rayonunda olarkən ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, Əlirzalı-Xan Qərvənd-Səfikürd-Tapqaraqoyunlu avtomobil yolunun, Goranboy Olimpiya İdman Kompleksinin açılışlarında iştirak edib.

## "Şərq qapısı" qəzetinin 100 illik yubileyi Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyində qeyd olunub

Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyində birəsrlik tarixi boyunca milli mətbuatımızın inkişafına böyük töhfələr vermiş, Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında müstəsna rol oynayan "Şərq qapısı" qəzetinin 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olanların, eləcə də xidməti fəaliyyəti zamanı həyatını itirmiş mətbuat işçilərinin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Tədbiri giriş sözü ilə açan Daimi Nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə 2021-ci il 1 iyun tarixli Sərəncamının əhəmiyyətindən danışıb. Çıxışda qəzetin nəşri tarixinə nəzər salınaraq qeyd olunub ki, ötən əsrin 70-80-ci illərində ümummilli liderimiz Heydər Əliyevin qayğısı




ilə qəzetin böyük formatda nəşri təmin edilmiş, qəzetdə xalqımızın milli dəyərlərinə və mədəniyyətinə həsr olunmuş yazılar işıq üzü görmüş, böyük Heydər Əliyevin birbaşa diqqət və qayğısı ilə qəzetin 50 illik yubileyi qeyd olunmuşdur. 1990-1993-cü illərdə isə "Şərq qapısı" qəzeti görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycanın xilası naminə həyata keçirdiyi tədbirləri və qəbul etdiyi tarixi qərarları geniş xalq kütləsinə çatdırmış, həmişə Vətəninə, dövlətinə sadiq olan fədakar naxçıvanlılar üçün informasiya blokadasının aradan qaldırılmasında və milli dövlət quruculuğu yolunda fəal mübarizlərdən olmuşdur. Müstəqillik illərində muxtar respublikada ümummilli liderimiz Heydər Əliyevin ideyalarının sədaqətlə gerçəkləşdirilməsinin nəticəsidir ki, "Şərq qapısı" qəzetinin maddi-texniki bazası da gücləndirilmiş, yaradıcılıq imkanları genişləndirilmiş, rəngli nəşrinə başlanılmışdır. "Şərq qapısı" qəzeti Naxçıvanın tarixini və keçdiyi inkişaf yolunu gələcək nəsillərə olduğu kimi çatdıra biləcək salnamədir. Qəzet bu gün də muxtar respublikanın ictimai-siyasi, sosial-iqtisadi, hərbi və elmi-mədəni inkişafına, tərəqqisinə öz töhfəsini verir.

Vurğulanıb ki, müstəqillik illərində muxtar respublikada digər sahələr kimi, mətbuat da yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" 2000-ci il 29 mart tarixli Sərəncamından sonra bu istiqamətdə mühüm tədbirlər həyata keçirilmişdir. Milli mətbuatımızın 135 illik yubileyində – 2010-cu il iyulun 22-də Naxçıvan şəhərində "Şərq qapısı" qəzeti redaksiyası və "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni redaksiya-nəşriyyat kompleksinin istifadəyə verilməsindən sonra qəzetin həyatında yeni dövrün təməli qoyulmuş, rəngli nəşrə başlanılmışdır. Muxtar respublikada mətbuatın inkişafı ilə paralel olaraq ölkəmizdə nümunə sayılacaq yüksək nəşriyyat-poliqrafiya mədəniyyəti də formalaşmışdır. "Şərq qapısı" qəzeti həmişə Ali Məclis Sədrinin diqqət və qayğısı ilə əhatə olunmuş, onun 75, 80, 85, 90 illik yubileyləri yüksək səviyyədə qeyd edilmişdir.

"Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" Sərəncamın imzalanması və bu sərəncamla Tədbirlər Planının təsdiq olunması, bütövlükdə, muxtar respublikada kütləvi informasiya vasitələrinin inkişafına dövlətin qayğısından, dəstəyindən xəbər verir. Bu, əslində, milli mətbuatın cəmiyyətdəki, dövlətçilik tariximizdəki mühüm roluna verilən siyasi qiymətdir", – deyən Bəxtiyar Əsgərov qeyd edib ki, bu mətbu orqan öz fəaliyyəti ilə muxtar respublikamızda işıq üzü görən bütün mətbu orqanlar, şəhər və rayon qəzetləri üçün nümunə sayılır, aparıcı jurnalist kadrların yetişməsində böyük rol oynayır.

Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyinin rəhbəri çıxışının sonunda qəzetin kollektivinə "Şərq qapısı" qəzetinin 100 illik yubileyi, həmçinin Milli Mətbuat Günü münasibətilə təbriklərini çatdırıb, bundan sonrakı fəaliyyətində yeni-yeni nailiyyətlər, yaradıcılıq uğurları arzulayıb.

Tədbir digər çıxışlar və Daimi Nümayəndəliyin arxivində saxlanmış "Şərq qapısı" qəzetinin müxtəlif illəri əhatə edən nömrələrindən ibarət sərgiyə baxışla davam edib.

**AZƏRTAC**

## Yarım ilin yekunları müzakirə edilib



Naxçıvan Şəhər İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı çağırış beşinci sessiyasından irəli gələn vəzifələr və 2021-ci ilin I yarım ilinə həsr olunmuş müşavirədə əvvəlcə şəhər Maliyyə İdarəsinin rəisi Ramil Kərimovun, Vergilər İdarəsinin müdiri Rəşad Əliyevin və Statistika İdarəsinin müdiri Ramil Gülməmmədovun hesabatları dinlənilib.

Tədbirdə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov geniş məruzə ilə çıxış edib. Bildirilib ki, hesabat dövründə Naxçıvan şəhərində iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,4 faiz çox vəsait yönəldilib. Əsas kapitala qoyulmuş vəsaitin həcminin artması Naxçıvan şəhərinin quruculuq xəritəsini xeyli genişləndirib, 18 müxtəlif təyinatlı obyekt tikilib və ya yenidən qurulub, 40 müxtəlif təyinatlı obyektin tikintisi, yenidən qurulması və ya əsaslı təmiri davam etdirilib. Tikinti-quraşdırma işlərinə qoyulan vəsaitin dəyəri ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,6 faiz artıb.

Qeyd olunub ki, 2021-ci ilin birinci yarısında Naxçıvan şəhərində tələbə yataqxanasının yenidən qurulması, Mərkəzi Hospitalın, Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin, Türkiyə-Naxçıvan Dostluq Parkının, aerodrom kompleksinin, təlim meydanının, iki əsgər yataqxanasının, iki anbarın tikintisi başa çatdırılıb, "ASAN xidmət" Mərkəzinin, Kimya-Biologiya Təmayüllü Liseyin, uşaq bağçasının, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin, Avtomobil parkının, Qeydiyyat Şöbəsinin, "Gənclər Yaşayış Kompleksi"nin, məscidin, uşaq kitabxanasının və bir yaşayış binasının tikintisi, Naxçıvan şəhərində avtomobil yollarının, Naxçıvan Dövlət Universitetinin Xarici dillər fakültəsi binasının və 10 yaşayış binasının yenidən qurulması davam etdirilib.

Vurğulanıb ki, sahibkarlığın dəstəklənməsi, yeni istehsal sahələrinin yaradılması məqsədilə 2021-ci ilin ötən dövründə dövlət dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 10 layihə üzrə istehsal obyektləri yaradılıb, 7 layihə üzrə istehsal və xidmət obyektlərinin yaradılması isə davam etdirilir. Ötən illə müqayisədə Naxçıvan şəhərində 1 faiz çox sənaye məhsulu istehsal edilib.



Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsində Avtomobil Yolları Dövlət Agentliyi ilə birgə keçirilən kollegiya iclasını komitənin sədri Hicran Rüstəmov açaraq bildirib ki, 2021-ci ilin birinci yarısında muxtar respublikada Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin xətti ilə 70 milyon 835 min manat həcmində inşaat işləri yerinə yetirilib ki, bunun da 66 milyon 657 min manatını və ya 94,1 faizini tikinti-quraşdırma işləri təşkil edib. Cari ilin birinci yarısında da yeni xidmət mərkəzi binalarının tikintisi davam etdirilib.

Komitə sədri bildirib ki, tikinti obyektlərində aparılan inşaat işləri zamanı materialların maya dəyərinin aşağı salınması, daxili bazarın qorunması üçün yerli istehsal materiallarından istifadəyə üstünlük verilib, tikinti-quruculuq işləri aparılarkən tikintidə təhlükəsizlik və əməyin mühafizəsi tədbirləri diqqət mərkəzində saxlanılıb.

Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin direktoru Bəhruz Əsgərov çıxışında qeyd edib ki, 2021-ci ilin birinci yarısında Şərur rayonunun daxili avtomobil yollarında cari təmir, Qıvraq-Püsyan-Xanlıqlar avtomobil yolunda asfalt-beton işləri, Çərçiboğan, Xanlıqlar-Aşağı Daşarx-Yuxarı Daşarx, Dərvişlər kənd avtomobil yollarının yenidən qurulması davam etdirilib, Babək rayonunun Göynük kənd avtomobil yolunun yenidən qurulması və rayondaxili avtomobil yollarında cari təmir işləri həyata keçirilib.

Bildirilib ki, cari ilin ötən altı ayı ərzində Culfa şəhərindəki 3 mərtəbəli yaşayış binası ətrafında asfalt-beton işləri, rayondaxili avtomobil yollarında isə cari təmir, Elşad Nağıyev küçəsi və Darıdağ Arsenli Su Müalicəxanasına gedən avtomobil yollarının yenidən qurulması işləri həyata keçirilib, Ordubad rayonunun Aşağı Əndəmic və Vənənd-Pəzməri kəndləri avtomobil yollarının yenidən qurulması isə davam etdirilir. Bundan əlavə, Naxçıvan-Şahbuz avtomobil yolunda asfalt-beton işləri davam etdirilib, əhalinin həmin yollardan rahat istifadəsinə əlverişli şərait yaradılıb. Ümumilikdə, görülən işlərlə yanaşı, Naxçıvan Yol Təmir-Tikinti İdarəsi tərəfindən muxtar respublika ərazisində yolların xətlənməsi, işıqforların quraşdırılması və təmiri, eləcə də Naxçıvan şəhərinin küçələrində asfalt qatının təmiri, Gigiyena və Epidemiologiya Mərkəzi binasının ətrafında asfalt-beton işləri aparılıb.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı çağırış beşinci sessiyasında qarşıya qoyulan vəzifələr və yarım ilin yekunları müzakirə edilib



Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyasından irəli gələn vəzifələr və 2021-ci ilin I yarım ilinə həsr olunmuş iclasda komitənin sədri Vaqif Rəsulov çıxış edərək bildirib ki, "Naxçıvan Muxtar Respublikasında statistika işinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 1 iyun tarixli Sərəncamının icrası istiqamətində inzibati ərazi dairələrində çalışan statistika işçiləri tərəfindən hər bir təsərrüfatın 2020-ci il üzrə göstəriciləri vaxtında dəqiqləşdirilərək təsərrüfatbaşına kitablara işlənilmişdir. Bununla yanaşı, 2020-ci il üzrə təsərrüfatbaşına kitablardakı hər bir təsərrüfat üzrə göstəricilərin xüsusi proqram təminatına işlənilməsi müəyyən olunmuş vaxtda başa çatdırılmışdır. Müvafiq Sərəncamın icrasına uyğun olaraq 2021-2025-ci illəri əhatə edən dövr üzrə yeni təsərrüfatbaşına kitablar nəşr edilərək şəhər və rayon statistika idarələrinə verilmişdir.

Vurğulanmışdır ki, "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamının icrası istiqamətində muxtar respublikada arıçılıq təsərrüfatlarının və arı ailələrinin uçotu aparılmışdır. "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 22 noyabr tarixli və 2019-cu il 18 yanvar tarixli sərəncamlarının icrası istiqamətində şəhər və rayon icra hakimiyyətlərindən rüblük dövrlərdə daxil olmuş məlumatlar əsasında ailə təsərrüfatlarının və onların istehsal etdikləri məhsulların ümumi uçotu aparılmışdır.

İclas məruzə ətrafında çıxışlarla davam edib.

* * *

Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsində keçirilən tədbiri giriş sözü ilə idarənin rəisi Hafiz İslambəyli açaraq bildirib ki, 2021-ci ilin birinci yarısında Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi qarşıya qoyulmuş tapşırıqların icrasını müvafiq qaydada təsdiq edilmiş iş planına əsasən həyata keçirib. İdarənin iş planı Hesablama Palatası haqqında Qanun, Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin Əsasnaməsinə və digər müvafiq normativ-hüquqi sənədlərə uyğun tərtib edilib.



Diqqətə çatdırılıb ki, idarənin iş planına uyğun olaraq cari ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası büdcəsinə kənar dövlət maliyyə nəzarəti tədbirləri çərçivəsində 5 müəssisə, idarə və təşkilat üzrə tədbirlərin planlaşdırılması, proqramları, işçi planları hazırlanaraq maliyyə və uyğunluq auditləri həyata keçirilib. Eyni zamanda dövr ərzində 4 müəssisə, idarə və təşkilatlar üzrə analitik təhlil aparılıb, nəticələri müvafiq qaydada rəsmiləşdirilib.

Hafiz İslambəyli qeyd edib ki, gələcək dövrlərdə də Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi qarşısında qoyulan vəzifələrin layiqincə yerinə yetirilməsi məqsədilə kənar dövlət maliyyə nəzarətinin qanunvericiliklə müəyyən edilmiş ekspert-büdcə ekspertizası ilə bağlı audit aparılmasının təmin edilməsi üçün işlər daha da gücləndiriləcək.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *

***Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin müşavirəsində xidmətin rəisi Əli Hüseynəliyev çıxış edərək Ali Məclis Sədrinin diqqət və qayğısı sayəsində nəqliyyat sisteminin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlərdən danışıb.***

Bildirib ki, bəhs olunan dövrdə muxtar respublika üzrə avtomobil nəqliyyatı ilə sərnişindaşıma fəaliyyəti göstərmək üçün 704 sahibkara lisenziya, 734 avtonəqliyyat vasitəsinə isə lisenziya kartı verilib. Həmçinin yükdaşıma fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin avtonəqliyyat vasitələrinə baxış keçirilib, yükdaşımalarda təhlükəsizlik tədbirləri haqqında həmin sürücülərlə müxtəlif vaxtlarda profilaktik söhbətlər aparılıb. Sərnişin və yükdaşıma fəaliyyəti göstərilməsi üçün avtonəqliyyat vasitəsi sahibləri tərəfindən 2021-ci ilin altı ayı ərzində, ümumilikdə, 95 min 300 manat vergi və 88 min 666 manat məcburi dövlət sosial sığortahaqqı ödənilib, 6 min 251 ədəd fərqlənmə nişanı alınıb.

Vurğulanıb ki, ötən müddət ərzində keçirilən reydlər zamanı qanunsuz



sahibkarlıq fəaliyyəti göstərən, eləcə də fərqlənmə nişanı almadan yayınan avtonəqliyyat vasitələri aşkar edilib, cəza tədbiri görülməsi üçün, ümumilikdə, 129 avtonəqliyyat vasitəsinin sahibi haqqında məlumat aidiyyəti orqanlara göndərilib.

Sonra çıxışlar dinlənilib.

* * *

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunda keçirilən iclası giriş sözü ilə fondun sədri Əli Quliyev açıb. Bildirib ki, 2021-ci ilin 6 ayı ərzində sığortaedənlər və sığortaolunanlar tərəfindən məcburi dövlət sosial sığorta haqları üzrə fondun xəzinə hesabına 55 milyon 431 min 900 manat vəsait köçürülmüşdür. Bu isə proqnoz üzrə nəzərdə tutulduğundan 1 milyon 611 min 900 manat və ya 3 faiz çoxdur. Məcburi dövlət sosial sığorta haqlarının 40 milyon 306 min 830 manatı büdcə təşkilatlarından, 15 milyon 125 min 70 manatı isə qeyri-büdcə sektoru üzrə sığortaedənlərdən daxil olmuşdur. Pensiya və müavinətlərin ödənişinə ayrılan vəsaitlərin 58 faizi məcburi dövlət sosial sığortahaqqı olaraq muxtar respublikada yığılmışdır.



Qeyd olunub ki, 2021-ci ilin 6 ayı ərzində Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu büdcəsinin xərcləri 97 milyon 364 min 917 manat icra olunmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 5 milyon 472 min 646 manat, yaxud 5,9 faiz çoxdur.

Vurğulanıb ki, 2021-ci ilin I yarım ilində pensiya və müavinətlərin maliyyələşdirilməsinə cəmi 95 milyon 601 min 323 manat, o cümlədən 93 milyon 509 min 437 manat pensiya ödənişinə, 2 milyon 91 min 886 manat məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərə yönəldilmişdir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 5 milyon 219 min 621 manat, yaxud 5,8 faiz çoxdur. 2021-ci ilin 6 ayı ərzində bank xidmət haqqı və plastik kartların dəyərinin ödənilməsinə 418 min 341 manat, fondun aparatı və onun yerli qurumlarının saxlanılmasına isə 1 milyon 345 min 253 manat ayrılmışdır.

Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlar zamanı həlak olan şəhidlərin ailə üzvləri və yaralanan hərbi qulluqçuların sosial müdafiəsi diqqətdə saxlanılmışdır. Hesabat dövründə 38 şəhidin 85 ailə üzvünə ailə başçısını itirməyə görə, 3 hərbi qulluqçuya xidməti vəzifələrini yerinə yetirərkən sağlamlıqlarını itirdiyinə görə əmək pensiyası təyin edilmişdir.

Sonda məruzə ətrafında çıxışlar olmuşdur.

* * *



Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətində keçirilən iclası xidmətin rəisi Vəli Novruzov açaraq bildirib ki, bəhs olunan dövrdə Kəngərli Rayon Baytarlıq İdarəsi üçün yeni inzibati binanın tikilməsinə başlanılması, Şərur rayonunun Şəhriyar, Ordubad rayonunun Nüsnüs və Yuxarı Əndəmic kəndlərində istifadəyə verilən kənd mərkəzlərində sahə baytar məntəqələri üçün yeni otaqların ayrılması qarşıya qoyulan vəzifələrin yüksək səviyyədə yerinə yetirilməsinə imkan verib.

10 may 2021-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfər edərkən Süni Mayalanma Mərkəzinin açılışında iştirakı bu sahəyə qayğının ifadəsi kimi məsuliyyətimizi daha da artırıb.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 17 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı"nın icrası istiqamətində müvafiq işlər görülüb. Yeni müalicə üsullarına üstünlük verilməsi, baytarlıq klinikalarının yaradılmasının, heyvandarlıq – arıçılıq əczaxanalarının açılmasının dəstəklənməsi, səyyar süni mayalanma xidmətinin həyata keçirilməsi, özəl iri damazlıq təsərrüfatlarının yaradılması, heyvandarlıqda sığorta işinin təşkili, yerli arı genofondunun mühafizəsi diqqətdə saxlanılıb.

Təsdiq olunmuş epizootik tədbirlər planına uyğun olaraq yarım il ərzində iribuynuzlu heyvanlarda qarayara, dabaq, emkar, pasterelloyoz və başqa xırdabuynuzlu heyvanlarda qarayara, dabaq, bradzot, bruselyoz, təkdırnaqlı heyvanlarda qarayara, itlərdə quduzluq, quşlardan yuksal xəstəliklərinə qarşı peyvəndləmə, obyektlərdə isə profilaktik məqsədlə dezinfeksiya tədbirləri aparılıb və hazırda bu işlər davam etdirilir.

Sonda məruzə ətrafında çıxışlar dinlənilib.



***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətində keçirilən müşavirəni cəmiyyətin sədri Yəhya Allahverdiyev açaraq məruzə ilə çıxış edib.***

Bildirilib ki, muxtar respublika ərazisində yerləşən və 303,5 milyon kubmetr su tutumuna malik olan sututarlara maksimum 249,9 milyon kubmetr su ehtiyatı toplanıb. Su istifadəçilərinə mexaniki üsulla və öz axını ilə 139,6 milyon kubmetr suvarma suyu verilib, bunun müqabilində təkrar suvarma ilə116 min 795 hektar torpaq sahəsi su ilə təmin olunub. Bu dövrdə Heydər Əliyev Su Anbarının qəza suburaxıcı qurğu tunelinin 143 metr hissəsində təmir-bərpa işləri başa çatdırılıb, rentabelli suvarma şəbəkələrinin qurulmasına, mütərəqqi suvarma metodlarının tətbiqinə üstünlük verilib.

Diqqətə çatdırılıb ki, Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 339 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilib, yanvar-iyun ayları ərzində 3,4 kilometr ana xətt, 34,4 kilometr müxtəlif diametrli borulardan paylayıcı boru xətti çəkilib, 250 hidrant və üç istiqamətdə çıxışı olan dəmir-beton hovuzlar quraşdırılıb. Bununla yanaşı, Şahbuz rayonunun Külüs, Nursu və Mahmudoba kəndlərinə aid 340 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisinə başlanılıb. Davamlı olaraq lildən təmizləmə işləri yerinə yetirilib, təmir-bərpa və tikinti işləri aparılıb. Torpaqların şoranlaşmasının qarşısını almaq məqsədilə drenaj kanalları və kollektorlar lildən təmizlənib, yeni drenaj kanalları qazılıb.

Müşavirə məruzə ətrafında çıxışlarla yekunlaşıb.

* * *

Yarım ilin yekunları və qarşıda duran vəzifələrlə əlaqədar "Naxçıvanpoçt" publik hüquqi şəxsin yığıncağını giriş sözü ilə direktor Səxavət Bağırov açıb. Bildirib ki, yaradılan şəraitdən səmərəli istifadə edilərək cari ilin 6 ayı ərzində əhaliyə fasiləsiz xidmət göstərilib. Belə ki, istifadə edilmiş elektrik enerjisinə görə 3 milyon 175 min 459 manat, istehlak edilmiş təbii qaza görə 6 milyon 887 min 889 manat, istehlak edilmiş suya görə 1 milyon 190 min 620 manat, rabitə xidmətlərindən istifadəyə görə 1 milyon 89 min 526 manat, internet istifadəçilərindən 1 milyon 49 min 693 manat, bələdiyyə ödənişlərindən 72 min 918 manat, məişət tullantısının yığılmasına görə 79 min 713 manat, Yeni Azərbaycan Partiyasının üzvlük haqqından 442 min 691 manat, Dövlət Yol Polisi cərimələrindən 38 min 477 manat vəsait yığılıb. Bağlamalar üzrə 46 min 394 manatlıq xidmət göstərilib, 6 milyon 36 min 270 manat pul baratı qəbul olunub,



5 milyon 436 min 213 manat pul baratı ödənilib.

Bildirilib ki, cari ilin altı ayında pensiyaçılara 1 milyon 26 min 507 manat pensiya ödənilib. Əvvəllər məktub və bağlamalar siyahı əsasında əlyazma ilə qəbul olunurdu. Artıq muxtar respublika ərazisində məktub və bağlamaların dünyada geniş yayılmış elektron kolver sistemi üzərindən işlənməsi tam təmin olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 8 fevral tarixli Sərəncamına əsasən Qars müqaviləsinin 100 illiyinə həsr olunmuş zərf və poçt markalarının çap olunması istiqamətində işlər davam etdirilir.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *



Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsində keçirilən iclası giriş sözü ilə açan idarənin rəisi Mehman Məmmədov bildirib ki, komplektləşdirmə mənbəyi olan idarə, müəssisə və təşkilatlarda formalaşan arxiv fondu sənədlərinin dövlət arxivlərinə daimi mühafizə üçün təhvil verilməsi, arxiv işçilərinin bu sahədə təlimatlandırılması, maarifləndirilməsi məqsədilə 24-25 may 2021-ci il tarixlərində, Naxçıvan Müəllimlər İnstitutu və Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin birgə təşkilatçılığı ilə muxtar respublikada fəaliyyət göstərən müxtəlif idarə və təşkilatların bir qrup arxiv əməkdaşları üçün "Arxiv işinin təşkili və təkmilləşdirilməsi yolları" mövzusunda ixtisasartırma kursu keçirilib.

Dövlət Arxivinin müvafiq şöbəsinin əməkdaşlarının və rayon dövlət arxivlərinin müdirlərinin peşə biliklərinin, həmçinin nəzəri və praktik bacarıqlarının artırılması məqsədilə 25 iyun 2021-ci il tarixdə Dövlət Arxiv İdarəsində "Arxiv fond sənədlərinin komplektləşdirilməsi işinin təşkili" mövzusunda seminar təşkil edilib.

2021-ci ilin yanvar-iyun ayları ərzində Dövlət Arxivinə yeni qəbul edilmiş 9,617 saxlama vahidinin siyahılarının elektron kataloqu hazırlanıb, həmçinin arxiv fondlarının elmi-məlumat aparatının zənginləşdirilməsi və informasiya-axtarış imkanlarının genişləndirilməsi məqsədilə arxivdə tərtib edilən 7,239 tematik kartda təsvir olunan məlumatlar kompütera köçürülüb.

Sonda məruzə ətrafında çıxışlar dinlənilib.

* * *

*Naxçıvan Muxtar Respublikası Turizm Departamentində keçirilən iclası giriş sözü ilə departamentin direktoru Əkbər Novruzov açaraq bildirib ki, Ali Məclis Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nın icrası istiqamətində işlər davam etdirilib, təbliğat sahəsindəki fəaliyyət gücləndirilib.*

Vurğulanıb ki, hesabat dövründə muxtar respublikada fəaliyyət göstərən turizm sektoru nümayəndələrinin müasir standartlar səviyyəsində fəaliyyət göstərmələri və peşə biliklərinin artırılması məqsədilə ardıcıl tədbirlər



görülüb. Turoperatorların və mehmanxana nümayəndələrinin iştirakı ilə seminarlar təşkil edilib. Cari ilin fevral ayında istifadəyə verilmiş Ağbulaq Xizək Mərkəzinin daha geniş kütləyə tanıdılması məqsədilə Naxçıvan Turizm İnformasiya Mərkəzinin rəsmi internet saytına Ağbulaq Xizək Mərkəzinin baneri yerləşdirilib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

“Şərq qapısı” – 100

# Müstəqillik illərinin tərcümanı

***Kütləvi informasiya vasitələrinin, həmçinin tarixi həqiqətləri xalqımıza və dünyaya təhrif olunmadan çatdıran peşəkar jurnalistlərimizin fəaliyyəti həmişə Azərbaycan dövlətinin, o cümlədən Naxçıvan Muxtar Respublikasında diqqət mərkəzində olmuş, onların fəaliyyəti hərtərəfli qayğı ilə əhatə edilmişdir. “Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı bunu bir daha təsdiq edir.***




1921-ci ildə nəşrə başlayan qəzet 1922-ci ildən “Şərq qapısı” adı ilə buraxılmışdır. Qəzetə bu adın verilməsi yalnız simvolik məna daşımamışdır. Naxçıvan tarixən Yaxın Şərq və Cənubi Qafqaz mədəniyyətlərinin kəsişmə nöqtəsi olmuşdur. Şübhəsiz ki, bu adın seçilməsində Azərbaycanın və Naxçıvanın tarixinin dərinliklərinə bələd olan H.Mahmudov, Ə.Vəliyev, M. İbrahimov kimi görkəmli ziyalılarımızın da müəyyən rolu olmuşdur. Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycanın Şərqə, tarixi torpaqlarımıza açılan qapısı məhz Naxçıvan idi. Azərbaycanın ayrılmaz parçası olan Naxçıvan xalqımızın dövlətçilik ənənələrinin formalaşmasında, həmçinin bu dövlətçilik ənənələrinin qorunub saxlanmasında mühüm rol oynayıb. Müstəqillik tariximizin yazılmasında və təbliğində də bütün çətinliklərə sinə gərərək Naxçıvan öz mövqeyini qoruyub saxlayıb.

1980-ci ildə “Sovet Naxçıvanı” adlandırılan qəzet, 1989-cu ildə xalqımızın müstəqillik uğrunda mübarizəsinin başlanması ilə “Şərq qapısı” adını yenidən bərpa etmiş, müstəqillik ideyalarının təbliğatçısına çevrilmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1990-cı il iyulun 22-də Naxçıvana gəlməsi də təsadüfi deyildi. Naxçıvan həm bu görkəmli şəxsiyyətin Vətəni idi, həm də burada ona qarşı böyük sevgi var idi. Sovet dövrünün bəzi mühafizəkar ziyalılarından fərqli olaraq Naxçıvanın əhalisi, o cümlədən ziyalılar dövlət xadimi kimi Heydər Əliyevin xidmətlərini və onun imkanlarını dəyərləndirməyi bacardılar. 26 iyul 1990-cı ildə ulu öndər Heydər Əliyevin “Şərq qapısı” qəzetindəki müsahibəsi müstəqilliyimizin inkişaf yolunu daha da aydınlatmış oldu. Görkəmli dövlət xadimi 1990-cı ilin sentyabr seçkilərində Azərbaycan SSR-in və Naxçıvan MSSR-in xalq deputatı seçildi. Kütləvi informasiya vasitələrinin az olduğu və çətin şəraitdə fəaliyyət göstərdiyi bu dövrdə “Şərq qapısı” qəzeti ulu öndərin dövlətçilik ideyalarının təbliğində, onun fəal siyasi mövqeyinin işıqlandırılmasında mühüm rol oynayırdı. Qəzetin səhifələrində ulu öndər Heydər Əliyevin Naxçıvanda olduğu müddətdə xalqımızın nümayəndələri, həmçinin onun qonşu dövlətlərin rəhbərləri ilə görüşlərinə geniş yer verilirdi. O dövrdə hələ Azərbaycan xalqı öz müstəqilliyini elan etməmişdi. Lakin “Şərq qapısı” qəzeti ulu öndərin fəaliyyətini, onun qətiyyətli mövqeyini təbliğ etməklə ümummilli liderlə birlikdə xalqımızı addım-addım müstəqilliyə yaxınlaşdırırdı. Sovet rəhbərlərinin havadarlığından istifadə edərək torpaqlarımıza təcavüz edən erməni millətçilərinin fəallaşdığı bir dövrdə dahi şəxsiyyət Heydər Əliyevin Naxçıvanda olması və “Şərq qapısı” qəzetinin yorulmadan erməni millətçilərinə qarşı mübarizəsi xalqımız üçün böyük mənəvi dəstək idi.

Heydər Əliyevin 1991-ci ilin sentyabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilməsi Azərbaycanda dövlət müstəqilliyi uğrunda gedən prosesə ciddi təsir göstərərək xalqımızın müstəqillik uğrunda mübarizəsinə inam və qətiyyət bəxş etdi. Həmin il noyabrın 17-də keçirilən Naxçıvan Ali Məclisinin birinci sessiyasında Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adı dəyişilərək Naxçıvan Muxtar Respublikası, Ali Sovet isə dəyişdirilərək Ali Məclis adlandırıldı. Bu sessiyada, həmçinin üçrəngli bayraq dövlət bayrağı kimi təsdiq edildi və Ali Məclisə gətirildi. Sovet rejiminin tüğyan etdiyi dönəmdə bu cəsarətli addımları yalnız Heydər Əliyev kimi böyük dövlət xadimi ata bilərdi. Bu cəsarətli addımlar ertəsi gün “Şərq qapısı” qəzetinin səhifələrində geniş şəkildə işıqlandırıldı. Naxçıvan Televiziyasında və “Şərq qapısı” qəzetində bu hadisələrin işıqlandırılması blokada vəziyyətində olan Naxçıvan əhalisinə ruh yüksəkliyi verməklə bərabər, həm də Azərbaycan xalqını müstəqillik uğrunda inamlı mübarizəyə yönəltdi. Bu hadisələrin ardınca Azərbaycanda da xalqımızın tarixi üçün əhəmiyyətli olan qərarlar qəbul olundu və nəhayət, xalqımız öz müstəqilliyini elan etdi və Azərbaycan Respublikası adlandırıldı.

Naxçıvan Muxtar Respublikasında yaşayan ulu öndər bir tərəfdən iqtisadi islahatlar keçirməklə əhalinin məşğulluq vəziyyətinin yaxşılaşdırılmasına, digər tərəfdən isə Ermənistan tərəfindən tam blokadaya alınan Naxçıvanın iqtisadi-mədəni əlaqələrini genişləndirməyə çalışırdı. 1992-ci ildə ulu öndərin İran və Türkiyə ilə apardığı danışıqlar nəticəsində Sədərək, Culfa və Şahtaxtı keçid məntəqələrinin yaradılması, 28 may 1992-ci ildə Sədərək-Dilucu körpüsünün istifadəyə verilməsi, hava limanının yenidən qurulması, muxtar respublikanın elektrik enerjisi ilə təmin edilməsi üçün görülən tədbirlər Naxçıvanın blokada vəziyyətinin çətinliklərindən çıxarılmasına şərait yaratdı, onun Azərbaycana və xarici ölkələrə çıxışını təmin etdi. Ulu öndər Heydər Əliyev Naxçıvana qayıdandan sonra Qars müqaviləsinin şərtlərini yenidən gündəmə gətirmiş, Naxçıvanın qorunmasını güvənc altına almışdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi Heydər Əliyevin yeritdiyi uğurlu xarici və daxili siyasət nəticəsində Naxçıvanda iqtisadi və siyasi sabitlik qazanılmışdı.

Naxçıvandan fərqli olaraq o dövrdə Azərbaycanın siyasi hakimiyyətində böhranlı vəziyyət yaranmışdı. Bu vəziyyətdən istifadə edən erməni işğalçıları torpaqlarımıza qarşı təcavüzü artırmışdılar. “Şərq qapısı” qəzeti bu illərdə nəşr olunan məqalələrində haqlı olaraq Azərbaycanın xilas yolunu dahi şəxsiyyət Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsində görürdü. 1992-1993-cü illərdə torpaqlarımızın erməni işğalçıları tərəfindən qarış-qarış ələ keçirilməsi, Azərbaycandakı siyasi böhran həm siyasətçiləri, həm də xalqımızı görkəmli dövlət xadimi Heydər Əliyevə müraciət etməyə məcbur etdi. Xalqımız nicat yolunu ümummilli lider Heydər Əliyevin böyük siyasətə gəlməsində görürdü. 15 iyun 1993-cü ildə ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsi xalqımızın qurtuluş günü oldu. Bu günlər “Şərq qapısı” qəzetinin səhifələrində geniş şəkildə işıqlandırıldı. 1995-ci il dekabrın 16-da cənab Vasif Talıbovun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi ilə ağır blokada şəraitində olan Naxçıvanda ulu öndərin quruculuq xətti ardıcıl şəkildə davam etdirilməyə başlandı. Hazırda Naxçıvan Muxtar Respublikası Şərqin qapısında çiçəklənən bir diyara çevrilmişdir. Biz hər gün “Şərq qapısı” qəzetinin səhifələrində tikinti-abadlıq işləri ilə bağlı reportajlara, sənaye və kənd təsərrüfatı müəssisələrini, mədəni maarif idarələrini, təhsil müəssisələrini, xarici turistlərin Naxçıvana səfərlərini əks etdirən məqalələrə rast gəlirik. Bir zamanlar qaranlığa qərq olan Naxçıvan indi yerli resurslardan, xüsusilə bərpa olunan enerji mənbələrindən istifadənin hesabına elektrik enerjisinin şüaları altında bərq vurur. Bütün bunları bizim doğma “Şərq qapısı” qəzetinin səhifələrində görmək xoş təəssürat yaradır.

*İnanıram ki, “Şərq qapısı” qəzeti bundan sonra da öz missiyasını uğurla davam etdirəcək, Heydər Əliyev siyasətinin muxtar respublikamızdakı təntənəsini səhifələrində işıqlandıracaq, 100 yaşlı mətbuat orqanında çalışan qələm sahibləri Vətənimizin çiçəklənməsindən daha da qürurla yazacaqlar.*

**Vəli BAXŞƏLİYEV**
***AMEA-nın müxbir üzvü***

***Hər şey oradan başladı. Ağcabədi rayonunun Haramı düzündən – Yusifcanlı kəndi istiqamətində yerləşən mövqelərdən. Hansı ki həmin yerdə düşmən postları ilə onların mövqelərini cəmi 20 metr məsafə ayırırdı. Şərur rayonunun Yengicə kəndində böyüyüb boya-başa çatan Orxan Əkbərov da qəhrəman Azərbaycan Ordusunun zabiti kimi həqiqi hərbi xidmətdə idi. Naxçıvandan uzanan yol Ağcabədi rayonunun ucsuz-bucaqsız Haramı düzünə çatmışdı. O buraya birillik xidmət üçün gəlsə də, gördükləri, yaşadıqları hərbi xidmətini burada başa vurmağa sövq etmişdi onu. Torpağın iki metr dərinliyində yatır, düşmənin beş-on metrliyində xidmət etsə də, günlərini saymır, əksinə, hərbi formanı sevir, onu üzərində daşıdığı üçün qürur duyurdu...***

# Vətənə xidmətin ən böyük mükafatı



Ömür-gün yoldaşı, onunla birlikdə birgə hərbçi ömrü yaşamış Ramiyyə Əkbərova deyir ki, Orxan 2001-ci ildən bu günə kimi bir an belə, nə ayağındakı çəkmələrin əziyyətindən, nə də ki yayın istisində, qışın soyuğunda üstündə daşıdığı formanın, silahın ağırlığından danışmadı: – 2003-cü ildə ilk dəfə onun səsində həyəcan duydum. Bunun səbəbi isə Yusifcanlı əməliyyatında yaxın dostu Daşqının şəhid olması idi. Həmin gün and içdi bu yolu sona kimi gedəcəyinə. Hansı ki həmin gün bir neçə ay sonra dünyaya gələcək övladını görmədən yaxın dostunun qollarında gözlərini yumub: – Alın qisasımızı, oğullarımıza qalmasın, – demişdi Daşqın.

Orxan 2008-ci ilə kimi Ağcabədi rayonunun N hərbi hissələrinin düşmənə yaxın mövqelərində xidmət edib. Həmin ilin avqust ayından Beyləqan şəhərinə göndərilir. İki il sonra Füzuli rayonunun Alxanlı kəndində qulluğunu davam etdirməyə başlayır.

Ailəsi Zobucuq qəsəbəsində yaşadığı vaxt, Orxan Alxanlıda xidmət edir, evə çox gec-gec gəlir, gələndə də ancaq əsgərlərinin şücaətindən və ermənilərin bizim torpaqlarımızda var-gəl etməsinin onları təngə gətirməsindən danışırmış.

Orxanın Füzuli rayonundan sonrakı qulluq etdiyi ünvan Goranboy rayonunun Ağcakənd qəsəbəsi olub. O, əsgərləri öz balası kimi görüb. Hər bayramda, əziz günlərdə əsgərləri üçün öz maaşı ilə süfrə açar, ömür-gün yoldaşına “yeməkləri sən bişir, qoy analarının əllərinin dadını hiss etsinlər”, – deyirmiş. Meşəli kəndində yerləşən taborda xidmətinin 15-ci ilində arzuladığı gün gəlmişdi. Bir aprel səhəri igid əsgərlərimizin atəş səsi ilə açıldı sabahımız. Elə bir günəş doğdu ki, həmin günü səbirsizliklə gözləyən bütün hərbçilər torpağımızı azad etmək üçün irəli atıldılar. Sakinlər – qadın, uşaq, ağsaqqal, ağbirçək başlarının üstündən gurultu ilə keçən mərmilərdən qorxmayıb hərbçilərimizin düşmənin mövqelərini sərrast vurmalarını gözləyirdilər. Düşmən mövqeyinə atılan hər mərmi cəbhədəki əhali tərəfindən sevinclə, alqışla qarşılanırdı. Hamının ürəyi cəbhə ilə, səngərlə döyünürdü. 4 gün gecə-gündüz cəbhəboyu bütün Azərbaycan gözünü bir an belə, yummadı. O günlərdə Azərbaycanın hər evi səngərə, hər vətəndaşı əsgərə çevrildi. Və illərdir, gözlədiyimiz qələbə xəbəri gəldi. Talış və Lələtəpə yüksəkliyi düşməndən azad edildi. Sevinci sonsuz idi, kədəri isə əziz dostu, qardaşı, komandiri olan, səngərdə çiyin-çiyinə döyüşdüyü Raquf Orucovu və onun kimi dəyərli Vətən oğullarını itirməsi idi. Onlar bu qələbə üçün canlarından keçmişdilər. Aprel zəfərindən sonra bir çox hərbçi mükafatlandırıldı, ailəsinin hədiyyəsi isə həm də Naxçıvanımıza köçürülmək oldu. Orxan Naxçıvan şəhərində, Gəncədə, Göygöldə qulluq etdi. Vətən müharibəsi başlayandan bir neçə gün sonra cəbhə bölgəsinə yola düşdü. Hər kənd, hər rayon düşməndən azad edildikcə sevincinin həddi-hüdudu olmurdu. Harada, hansı kənddə döyüşdüyünü doğmalarına bildirməzdi. O vaxta qədər ki, müharibədə ağır beyin travması alaraq günlərlə, hospitalda yatmalı olur. Orxan Cəbrayıl rayonu azad ediləndə səhhəti pisləşsə də, hospitala getməkdən imtina edib, Qubadlı, Füzuli uğrunda gedən döyüşlərə qatılıb.

Müharibə artıq səkkiz aya yaxın bir müddətdir ki, bitib. Neçə-neçə igid canından, neçələri isə sağlamlığından keçdi düşmən tapdağı altında olan torpaqlarımız yenidən Vətənimizə qovuşsun deyə. Onlar canlarından, sağlamlıqlarından keçdilər ki, bu od balalarımızı yandırmasın.

İki övlad atası olan Orxanın böyük oğlu Aydın Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin IX sinif şagirdidir. 44 günlük azadlıq mücadiləsindən sonra keçirilən inşa yazı müsabiqəsində Aydın yazır: “Müharibə Azərbaycanın xeyrinə qurtardı. Neçə şəhidimiz, neçə qazimiz oldu. Bu müharibədə atam da sağlamlığını itirib. Ancaq onun Azərbaycan Ordusunun zabiti olması ilə qürur duyuram”.

Prezident cənab İlham Əliyevin sərəncamları ilə adıçəkilən zabitlər içərisində Zəngilan və Cəbrayılın azad edilməsinə görə təltif olunanlardan biri də Vətənə 20 il xidmət edən Orxan Əkbərovdur. Onun səngərlərdə, illərlə çəkdiyi zəhmətin bəhrəsi, Vətənə xidmətin ən gözəl mükafatıdır bu medallar. Düzdür, qüsursuz keçən 20 illik xidməti dövründə fəxri fərmanlar, medallar çox almışdı, amma Qələbə münasibətilə gələnlərin yeri tam başqadır onun üçün. Bu gün Orxan çox qürurludur, çünki 20 ildir, Vətən borcunu cəbhədə, səngərdə yerinə yetirən və müzəffər Ordunun zabiti kimi şərəfli ad daşıyır.

**Muxtar MƏMMƏDOV**

# Gənclərlə birgə tədbirlərin təşkili diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikası Gənclər Fondunda keçirilən iclası fondun icraçı direktoru, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Cəbi Quliyev açaraq bildirib ki, fondun təşkilatçılığı ilə 2021-ci ilin birinci yarım ilində də gənclər arasında müxtəlif müsabiqələr, mədəni tədbirlər, intellektual oyunlar keçirilib, yay məktəbləri təşkil olunub. Belə ki, 2 fevral – Gənclər Günü münasibətilə bir sıra tədbirlərin keçirilməsi diqqətdə saxlanılıb. Naxçıvan Muxtar Respublikası Gənclər Fondu və Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin təşkilatçılığı ilə Gənclər Mərkəzində “Qənaətcil büdcəmiz” adlı interaktiv təlim keçirilib və təlimdə 40-dan çox gənc iştirak edib. Gənclər Fondu, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin birgə təşkilatçılığı, sosial könüllülərin iştirakı ilə “Görüş yeri” kafesində sağlamlıq imkanları məhdud gənclər üçün tədbir təşkil olunub. Tədbirdə 30 gəncə hədiyyələr təqdim edilib. Bundan başqa, Gənclər Fondu, Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə Gənclər Mərkəzində Naxçıvan Muxtar Respublikasının ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən yeniyetmə və gənclərin mükafatlandırılması mərasimi təşkil olunub. Tədbirdə müxtəlif nominasiyalar üzrə 48 gənc qiymətli hədiyyə və diplomlarla mükafatlandırılıb.



Çıxışda “Nizami Gəncəvi ili” ilə əlaqədar Gənclər Fondunun ölməz sənətkarın həyat və yaradıcılığının, ideallarının muxtar respublika gənclərinə tanıdılması və təbliği məqsədilə “Nizami xəmsəsi” layihəsi çərçivəsində keçirdiyi tədbirlər haqqında da ətraflı məlumat verilib.

Diqqətə çatdırılıb ki, hesabat dövründə könüllülərlə iş də diqqət mərkəzində saxlanılıb. Belə ki, Gənclər Fondu sosial, ekologiya könüllülərinin sıralarına yeni könüllülərin cəlb edilməsi istiqamətində işlər aparılıb, könüllülərlə bir sıra tədbirlər reallaşdırılıb, gənclərlə müxtəlif sahələrdə fəaliyyət daha da gücləndirilib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

# Müstəqillik illərinin bəhrəsi – “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi

*“Jurnalistika çətin sənətdir. Bunu etiraf etmək lazımdır, asan sənət deyildir. Başqa bir yerdə, başqa bir peşə sahibi gəlib öz işində oturub işləyir, müəyyən saat qurtarandan sonra evinə gedir... Amma jurnalistin iş yeri yoxdur. Qəzetin redaksiyası da jurnalistin iş yeri deyildir. Çünki o, redaksiyada otursa, elə ancaq yuxarıya baxsa, bir şey yaza bilməyəcək, fəaliyyət də göstərə bilməyəcək. Demək, jurnalist gərək daim cəmiyyətlə əlaqədə olsun, insanlarla əlaqədə olsun və müxtəlif yerlərlə təmasda olsun ki, istədiyi məlumatı ala bilsin və onların əsasında istədiyi sahədə öz məqalələrini, öz əsərlərini yaza bilsin. Bu, asan iş deyildir. Mən bunu bilirəm və öz fikrimi başqalarına da bildirmək istəyirəm. Ona görə də biz gərək jurnalistlərə kömək edək”.*



Ümummilli liderimiz Heydər Əliyevin bu fikirlərini bir neçə ildir, çalışdığım və mənə ailə qədər doğma olan “Şərq qapısı” qəzetinin timsalında görmək mümkündür. Günün hər saatında, hər dəqiqəsində işinin başında olan, gün ərzində baş verən ictimai-siyasi yenilikləri, günün nəbzini tutan vacib və aktual xəbərləri ictimaiyyətin diqqətinə çatdıran, əzmlə çalışan qəzetin əməkdaşları, sözün əsl mənasında, cəfakeşlik nümunəsi göstərirlər. Bu da danılmaz həqiqətdir ki, hər hansı qəzetin ərsəyə gəlməsində təkcə qələm sahiblərinin, yaradıcı insanların rolundan bəhs etməklə kifayətlənmək doğru olmaz. Çünki qəzet üçün yazıların hazırlanması işin birinci mərhələsidir. Sonra isə həmin yazıların yığılması, səhifələrin dizayn edilməsi və ən əsası isə, son nəticədə, mətbəədə çap olunması zəhmətli və uzun bir prosesdir. Çünki qəzetçilikdə mətbəə işinin rolu danılmazdır. Bu mənada, muxtar respublikada mətbuat orqanlarının yüksək poliqrafik keyfiyyətlə ərsəyə gəlməsində “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi kollektivinin əməyi böyükdür.



“Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin fəaliyyəti, iş prosesi ilə bağlı birliyin direktoru Pərvin Məmmədov ilə həmsöhbət olduq. Dedi ki, Naxçıvanda fəaliyyət göstərən birliyin qəzetlə bərabər, digər çap məhsullarının istehsalında da böyük rolu var. 1997-ci ildən fəaliyyət göstərən müəssisə 2001-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin balansına verilərək yüksək qayğı ilə əhatə olunub. Ümumiyyətlə isə muxtar respublikamızda çap məhsulları istehsalının tarixi ötən əsrin əvvəllərindən başlanır. Belə ki, 1921-ci ildə Naxçıvanda ilk çap sexi yaradılıb və bu müəssisə 1938-ci ilədək “Şərq qapısı” qəzeti redaksiyasının nəzdində olan mətbəə kimi fəaliyyət göstərib. Bundan sonra isə “Naxçıvan mətbəəsi” adı ilə müstəqil müəssisəyə çevrilib. Uzun illər ərzində müxtəlif yerlərdə uyğunlaşdırılmış binalarda köhnə avadanlıqlarla fəaliyyət göstərən müəssisənin işində əsaslı dönüş 2001-ci il martın 29-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən imzalanmış “Naxçıvan Muxtar Respublikasında dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətinin yaxşılaşdırılması tədbirləri haqqında” Sərəncamından sonra başlayıb. Bundan sonra muxtar respublikada fəaliyyət göstərən digər mətbuat qurumları kimi, “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin də fəaliyyəti üçün əlverişli şərait yaradılıb və maddi-texniki bazası möhkəmləndirilib. Artıq bu nəşriyyat müəssisəsi müasir nəşriyyat evlərində istifadə edilən müasir kompüter və çap avadanlıqları ilə təmin olunub. Belə ki, “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin 2010-cu ildə istifadəyə verilmiş yeni binada yerləşdirilməsi və burada yüksək poliqrafik göstəricilərə malik Almaniya istehsalı olan çap avadanlığının quraşdırılması, 2015-ci ildə isə ikinci belə bir avadanlığın alınması muxtar respublikada nəşr-poliqrafiya işinə göstərilən diqqətin bariz nümunəsidir. Artıq Naxçıvanda “Şərq qapısı”, şəhər və rayon qəzetlərinin, habelə müxtəlif kitab və jurnalların rəngli formatda nəşr olunması yüksək səviyyədə həyata keçirilir. Bunlardan əlavə, “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi tərəfindən müəssisə və təşkilatlar üçün dəftərxana kitabları, sadə və ciddi hesabat blankları, müxtəlif qəbzlər, təqvimlər, etiketlər, dəftərlərin hazırlanması həyata keçirilir. Müəssisəyə dövlət sifarişlərindən başqa, muxtar respublikada fəaliyyət göstərən elm və mədəniyyət müəssisələri tərəfindən də müxtəlif çap sifarişləri daxil olur, bu məhsullar yüksək standartlar və müasir dizayn əsasında qısa müddətdə hazırlanır.



Pərvin müəllim onu da qeyd etdi ki, son illərdə “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində nəşr olunmuş kitablar arasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən sifariş olunan nəşrlər də yüksək poliqrafik keyfiyyəti ilə seçilir.

Bunu, xüsusilə qeyd edim ki, bu gün mətbuat sahəsində çalışan insanlarla yanaşı, nəşriyyat və poliqrafiya əməkdaşlarının əməyinin də qiymətləndirilməsi dövlətimizin mətbuat sahəsinə diqqət və qayğısının nəticəsidir. Son illər birliyin əməkdaşlarının iş şəraiti daha da yaxşılaşdırılıb, əməkhaqları artırılıb və uzun illər bu sahəyə əmək sərf edən təcrübəli əməkdaşların əməyi dövlətimiz tərəfindən dəyərləndirilib. Onlardan biri də 2015-ci ildə “Rəşadətli əməyə görə” nişanı ilə təltif olunmuş Səkinə Mirzəyevadır.

Səkinə xanım bizimlə söhbət zamanı dedi ki, bu gün doğma Naxçıvanımızda bütün sahələrdə əldə olunan inkişaf mətbuatı da əhatə edib. Əvvəllər mətbəəmizdə çap edilən məhsullar primitiv alınır, çox hallarda oxucu tələbi ilə üst-üstə düşmürdü. Köhnə, istismar müddətini başa vurmuş maşınlarda çap nümunələri keyfiyyətsiz alınırdı. Müstəqillik illərinin bəhrəsi kimi 2010-cu ildən “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin yeni binada fəaliyyətə başlaması dövlət qayğısının parlaq təzahürüdür. Bununla yanaşı, hər zaman əməyinizə də yüksək qiymət verilir. 2015-ci ildə “Rəşadətli əməyə görə” nişanı ilə təltif olunmağım bunun gerçək nümunəsidir.

Muxtar respublikada bütün mətbu orqanların nəşr olunduğu “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində çapçı kimi fəaliyyət göstərən Məhəmməd Səfərov məni qəzet və kitabların nəşri prosesi ilə tanış etdi. Şahidi oldum ki, hazırladığımız materialların – qəzetin çap olunması bir çox proseslərdən keçir və mətbəə əməkdaşlarının zəhməti sayəsində oxucuların görüşünə gəlir. Belə ki, redaksiyamızda hazırladığımız materiallar kompüterdə yığılıb dizayn edildikdən sonra pdf formatında nəşriyyata təqdim edilir. Burada ən müasir poliqrafiya avadanlıqları ilə müvafiq dizayn, rəngayırma, qatlama və digər proseslərdən keçir və sonra əvvəlcədən müəyyən olunmuş tirajda çap olunur. Xüsusilə qəzet səhifələrinin nəfis tərtibatda və keyfiyyətlə nəşr olunması burada çalışan əməkdaşlardan yüksək diqqət tələb edir və çap prosesi, əsasən, günün sonundan gecə saatlarınadək davam edir. Min bir zəhmət, diqqət və böyük məsuliyyət hissi ilə ərsəyə gələn qəzetlər səhər tezdən abunəçilərin ünvanlarına çatdırılır. Həmçinin kitab və jurnalların nəşri də ən müasir tələblər əsasında və keyfiyyətli şəkildə aparılır. Buradakı müasir avadanlıqlar kitabların bir neçə variantda və minlərlə tirajda nəşrinə imkan verir. Əvvəllər çətin və uzun zaman tələb edən kitab nəşri indi bu avadanlıqlar sayəsində daha keyfiyyətli və qısa zaman çərçivəsində işi başa çatdırmağa imkan verir.

Mətbəədə hər kəsin öz işi var. Uzun illər burada çalışan zəhmətkeş insanlardan biri də Rəfiqə Cəlilovadır. Rəfiqə xanımın əsas işi mətbəəyə verilən sifarişlərin qeydiyyatını aparmaq, yığılan sifarişləri müvafiq bölmələrə göndərmək, hazır məhsulları sifarişçilərlə yenidən əlaqə yaradaraq onların göndərilməsini təmin etməkdir. O deyir ki, 1981-ci ildən burada çalışır. Heç zaman zəhmətdən qorxmayıb, həm də gördüyü işdən zövq alıb. Əvvəllər işimiz çox çətin olsa da, yeni bina ilə təmin olunduqdan sonra şəraitimiz yaxşılaşıb, həm də istifadə etdiyimiz avadanlıqlar əməyimizi yüngülləşdirib. Müsahibimin sözlərinə görə, işdə müxtəlif yaş qruplarında olan əməkdaşlar var və onların işgüzarlığı, bir-biri ilə səmimi münasibəti mehriban bir kollektivin formalaşmasına şərait yaradıb. Buna görədir ki, poliqrafiya işi nə qədər zəhmət, məsuliyyət tələb etsə də, hər kəs öhdəsinə düşən vəzifənin layiqincə yerinə yetirilməsinə çalışır.

*“Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi “Şərq qapısı” qəzetində çalışan hər bir əməkdaş üçün çox doğmadır. Eyni inzibati binada yerləşməyimiz gün ərzində hər iki kollektivin əməkdaşlarını dəfələrlə qarşılaşdırır. Bu kollektiv əməkdaşlarının yeganə məqsədi isə dövlətçiliyimizə, onun ideyalarına sədaqətlə xidmət etməkdir. Biz də bu müqəddəs məramın gerçəkləşdirilməsində onlara uğurlar arzu edirik.*

**Gülcamal TAHİROVA**

*Neçə illərdir ki, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Həmkarlar İttifaqları Şurasının təşkilatçılığı ilə Ağbulaq İstirahət Mərkəzində xüsusi kateqoriyadan olan uşaqlar üçün “Yay məktəbi” təşkil olunur.*

## Xüsusi qayğıya ehtiyacı olan uşaqlar “Yay məktəbi”nə cəlb edilib



Qeyd edək ki, xüsusi qayğıya ehtiyacı olan ailələrin, şəhid və çoxuşaqlı ailələrin övladları, hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş, o cümlədən tək valideyn himayəsində yaşayan uşaqlar olmaqla, Ağbulaq İstirahət Mərkəzində, ümumilikdə, 49 uşağın “Yay məktəbi”ndə iştirakı təmin edilib. Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Sədri Ramilə Seyidova və Həmkarlar İttifaqları Şurasının sədri Anar İbrahimov çıxış edərək artıq ənənə halını almış “Yay məktəbi”nin uşaqlar üçün əhəmiyyətinə toxunublar. Bildiriblər ki, dövlətimiz tərəfindən onların layiqli vətəndaş kimi yetişmələri, milli ruhda tərbiyə olunmaları, bilikli, bacarıqlı, yüksək intellektli insanlar kimi formalaşmaları üçün bütün mümkün tədbirlər həyata keçirilir. Ümumiyyətlə, “Yay məktəbi”nin təşkil edilməsinin uşaqların mənəvi inkişafında çox böyük əhəmiyyətinin olduğu vurğulanıb.

Şəhid Ruzi İbrahimovun qızı Gülay İbrahimova onlara bu imkanı yaradan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə uşaqlar adından minnətdarlıq edib.

Sonra uşaqlar Ağbulaq İstirahət Mərkəzində onlar üçün ayrılmış otaqlarda yerləşdirilib. “Yay məktəbi”nin ilk günündə uşaq hüquqları ilə bağlı maarifləndirici seminar keçirilib. Sonra uşaqlar nahar ediblər.

Nahardan sonra uşaqlar üçün əyləncəli oyunlar təşkil olunub. Məlumat üçün bildirək ki, “Yay məktəbi”nin proqramına uyğun olaraq uşaqlara hər gün səhər gimnastikası təşkil edilib. Ağbulaq kəndinə ekskursiyaya aparılıblar. Onlar müxtəlif idman və əyləncəli oyunlarda, intellektual yarışlarda, diskussiyalarda, oxunması zəruri olan kitabların mütaliə və müzakirəsində iştirak ediblər. “Yay məktəbi”ndə Azərbaycan filmlərinin nümayişi və Şahbuz Rayon Kolanı kənd Uşaq Musiqi Məktəbinin şagirdlərinin iştirakı ilə konsert proqramı da maraqlı qarşılanıb. İstirahət müddətində müsabiqə və yarışlar da keçirilib.

Qeyd edək ki, “Yay məktəbi”nə cəlb edilmiş uşaqlara nəzarət etmək üçün komitənin 4 nəfər əməkdaşı və istirahət müddətində onların sağlamlıqlarının qorunması, onlara ilkin tibbi yardımın göstərilməsi məqsədilə 1 həkim təhkim olunub.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Əmək yarmarkası keçirilib

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən növbəti əmək yarmarkası iyul ayının 22-də Naxçıvan şəhərində keçirilib. Yarmarkada işaxtaranlara 54-ü dövlət və 40-ı özəl sektor olmaqla, ümumilikdə, 94 müəssisədən 725 boş iş yeri təqdim edilib. Yekunda isə, 38 nəfərin sözügedən vakansiyalar üzrə işə göndərilməsi təmin olunub, 8 nəfərin özünüməşğulluq proqramına cəlb edilməsi üçün qeydiyyatı aparılıb. Həmçinin bu əmək yarmarkasında 11 nəfər işaxtaran peşə kurslarına cəlb edilməsi üçün qeydiyyata alınıb.

Növbəti əmək yarmarkası bu gün Şahbuz rayonunda təşkil ediləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Dispanserizasiya tədbirləri aparılır



Naxçıvan Muxtar Respublikasında yuxarı yaş həddində olan vətəndaşlar arasında xəstəliklərin erkən və vaxtında aşkar olunması üçün profilaktik müayinələrin aparılması və müalicələrinin təşkil edilməsi üçün əhali arasında 76-80 yaş qrupundan olan vətəndaşların dispanser qeydiyyatına start verilib.

Hazırda “Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası” publik hüquqi şəxsi və rayon mərkəzi xəstəxanaları yerlərdə həmin yaş qrupuna aid vətəndaşların siyahısını çıxararaq dispanser qeydiyyatını dəqiq və obyektivliyini təmin edirlər. Dispanser qeydiyyatı haqqında yekun məlumat hazırlanaraq Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin növbəti kollegiya iclasına təqdim ediləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Paralimpiyaçılarımız Balakəndə



Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının idmançıları təlim-məşq toplanışında iştirak edirlər. Belə ki, idmançılarımız qolbol idman növü üzrə baş məşqçi Zahir Abdullayevin rəhbərliyi ilə keçirilən milli komandanın təlim-məşq toplanışına yollanıblar. Azərbaycan Milli Paralimpiya Komitəsi tərəfindən Balakən şəhərində təşkil olunan toplanışa Paralimpiya Federasiyasının qolbol bölməsindən məşqçi-müəllim Turan Hüseynov və 3 paralimpiyaçı – Kamal Yusifli, Qəzənfər Zamanov və Samir İmamquliyev qatılıblar.

10 günlük təlim-məşq toplanışı ərzində “Naxçıvan” və “Bakı” komandaları arasında yoldaşlıq görüşü də təşkil olunub. Oyun muxtar respublika təmsilçisinin qələbəsi ilə başa çatıb.

Toplanış zamanı Qəzənfər Zamanov baş məşqçinin etimadını qazanaraq milli komandamızın heyətinə dəvət olunub.

**Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Naxçıvan şəhəri, Babək məhəlləsi, bina 4, mənzil 33-də yaşamış Baxşəliyev Heydər Balov oğlunun adına olan 10520 inventar nömrəli texniki pasport və 12/287 nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 584